**UNUTMAYIN!**
Yolların təhlükəsiz olması hər birimizdən asılıdır.




**ÖZÜNÜN VƏ BAŞQALARININ HƏYATI İLƏ OYNAMA!**



**TƏHLÜKƏSİZ HƏRƏKƏT ET!**

Buklet Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində hazırlanmışdır. Bukletdə dərc olunanlar Ümumdünya Səhiyyə Təşkilatının və Azərbaycan Respublikası Baş Dövlət Yol Polisi İdarəsinin rəsmi məlumatlarına əsaslanır.

İSİM
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ
Bakı, AZ1122, Zərdabi küç., 96
Tel: 431-60-88, faks: 430-52-85
office@isim.az www.isim.az

# YOL HƏRƏKƏTİ TƏHLÜKƏSİZLİYİ VƏ GƏNCLƏR BARƏDƏ



# 10 FAKT

Yol-nəqliyyat qəzaları dünyada 10-24 yaşlı insanların əsas ölüm səbəblərindən biridir. Hər il 25 yaşadək 400 000 gənc yol-nəqliyyat qəzaları zamanı dünyasını dəyişir.

2007-ci il ərzində Azərbaycanda baş vermiş yol-nəqliyyat hadisələri nəticəsində 1107 nəfər həlak olmuş, 3 432 nəfər isə zədələr almışdır.

Yollarda baş verən qəzalar ictimai səhiyyənin diqqətində olan ən mühüm problemlərdən biridir. Yol-nəqliyyat qəzaları nəticəsində baş verən travmatizmin iqtisadi nəticələri uzun müddətli tibbi yardım xərclərinə, işləyən ailə üzvünün əlillik və ya ölümü ilə bağlı gəlirlərin azalmasına səbəb olur ki, bu da əksər hallarda ailələrin maddi vəziyyətlərinin çətinləşməsinə gətirib çıxarır. Belə xərclər bir çox ölkələrdə ümumdaxili məhsulun 1-2,5%-ni təşkil edir.

1



Hər gün dünyada yol-nəqliyyat qəzalarında 1000-dən çox uşaq və gənc (25 yaşadək) həlak olur.

2



Aşağı və orta gəlirli ölkələrdə yol qəzalarında həlak olan və ya travma alan gənclərin əksəriyyəti piyada, velosipedçi, motosikletçi, ya da ictimai nəqliyyat sərnişinləri olur.

Yüksək gəlirli ölkələrdə isə yol-nəqliyyat qəzalarının qurbanları əsasən nəqliyyat vasitələrini yeni idarə etməyə başlayan sürücülərdir.

3



Yolların çəkilməsi və yol hərəkəti təhlükəsizliyinin planlaşdırılması zamanı uşaqların acizliyi, onların nisbi təcrübəsizliyi, fərqli inkişafı, eləcə də oynamaq və təhlükəsiz hərəkət etmək tələbatları nəzərə alınmalıdır.

4



Hər üç yol-nəqliyyat qəzasından biri sürətin artırılması səbəbindən baş verir. Bu da gənc kişi sürücülər tərəfindən yol hərəkəti qaydalarının ən çox yayılmış pozuntusudur.

Bəzi ölkələrdə təcrübəsiz sürücülərə sürətli yollarda hərəkət etmək qadağan edilir.

5



Spirtli içkilərin qəbul edilməsi yol-nəqliyyat qəzaları riskini dəfələrlə artırır. Nəqliyyat vasitəsinin spirtli içkilərin təsiri altında idarə olunmasına yol verilməməlidir.

6



Dəbilqələrdən (şlem) istifadə motosiklet qəzalarında baş-beyin zədələnmələrinin, ölüm hallarının azaldılmasının ən effektiv üsuludur.

Velosiped sürərkən uşaqların da dəbilqə geyinmələri vacibdir.

7



Gənc sürücü və sərnişinlər təhlükəsizlik kəmərlərindən istifadə etməyə daha az meyllidirlər.

Təhlükəsizlik kəmərlərindən düzgün istifadə isə qəza zamanı ölüm riskini 61% azaldır.

8



Uşaqlar üçün xüsusi oturacaqlardan istifadə yol qəzaları zamanı uşaq ölümünü 35%-dək azalda bilər.

Uşaqlar yaş və çəkilərinə uyğun oturacaqlarda yerləşdirilməlidirlər.

9



Piyadalar və velosipedçilər, xüsusilə də gecə vaxtı, yollarda çətin seçilirlər. Onlar parlaq və ya işığı əks etdirən geyimdə daha görünən olurlar və bu da qəzaların qarşısının alınmasında kömək edir.

10



Qəzaya uğramış uşaqlara kömək göstərilərkən onların fiziki, psixoloji və fizioloji baxımdan böyüklərdən fərqlənmələri nəzərə alınmalıdır.